# 2013-CÜ İL ÜÇÜN 2-Ci MƏQSƏDLİ BİRGƏ İKT MÜSABİQƏSİ (EİF-RİTN-MQM-2/İKT-2-2013-7(13)) ÇƏRÇİVƏSİNDƏ YERİNƏ YETİRİLMİŞ LAYİHƏ ÜZRƏ NƏŞRLƏR VƏ ƏSAS ELMİ NƏTİCƏLƏR

Azərbaycan Respublikasının Prezidentinin yanında Elmin İnkişaf Fondunun dəstəyi ilə Sosial şəbəkələr vasitəsilə vətəndaşların müştəriləri olduqları şirkətlərin sadiqlik xüsusiyyətlərinin öyrənilməsinə həsr olunmuş layihə çərçivəsində aşağıdakı işlər görülərək, nəticələr əldə edilmişdir. Layihənin həyata keçirilməsi müddəti, 2014-2015-ci illəri əhatə edən dövrü ərzində, Azərbaycan Respublikası ərazisində populyar olan sosial şəbəkə və platformalar araşdırılaraq, istifadəçilərin diqqətini cəlb edən faktorlar nəzərdən keçirilmişdir. Alınmış məlumatlar əsasında iKeebon (oxu - aykibon) adlı mobil tətbiq yaradılaraq, geniş istifadəyə verilmişdir. Mobil tətbiqin əsas xüsusiyyəti, bazarda mövcud olan bütün növ sadiqlik kartlarının virtual əksini mobil telefona köçürtmə imkanı olmuşdur ki, bu metodla istifadəçilər öz bank istehsalı olmayan bonus, endirim, aviamil, kupon, bilet və s. tipli kartları telefonun yaddaşında saxlaya bilərlər. Hal-hazırda tətbiqin daxilində 100-ə yaxın aktiv sadiqlik kartı mövcuddur ki, istifadəçilər bunların istənilən birindən istifadə edə, həmçinin sistemdə nəzərdə tutulmamış lakin, istifadədə olan digər kartların da əlavəsini etmək mümkündür.

Əlavə olaraq, tətbiqin xüsusi təkliflər bölməsində, sosial şəbəkələr vasitəsilə paylaşılan maraqlı təklifləri də əldə edərək, xərclərə qənaət etmək mümkündür. Mobil tətbiq 3 dili (Azərbaycan, Rus və İngilis) dəstəklədiyindən, biz həmçinin ölkəmizə qonaq gələn xarici turistlərin marağına səbəb ola biləcək, xüsusi təkliflər barədə də məlumatlar yerləşdiririk. Bundan əlavə olaraq Azərbaycanda ilk dəfə, məlumatların blutuz ilə ötürülmə texnologiyası əsasında işləyən “iBeacon” texnologiyası da tətbiq edilmişdir. iBeacon texnologiyası vasitəsilə, seçilmiş məkanlarda quraşdırılmış xüsusi cihazlar vasitəsilə istifadəçilərin telefonlarına, yalnız onların həmin məkana gələrək, telefonlarına ötürülən məlumat əsasında xüsusi təkliflərdən yararlanmaq imkanları var. Hal-hazırda bu metodun tətbiqi ilə bağlı bir neçə məkan ilə danışıqlar aparılır.

Yerlər bölməsində isə şəhərin müxtəlif məkanları haqqında kateqoriyalaşmış məlumatlar yer almışdır. Bu bölmədən istifadə edən həm şəhər sakinləri, həm də qonaqları şəhərin ən yaxşı və görməli məkanları haqqında geniş məlumat əldə etməklə yanaşı, həmin məkanda nə qədər qənaət edə biləcəyini öyrənə bilər. Əlavə olaraq UBER taksi xidmətinin sistemə inteqrasiyası ilə, olduğu yerdən, istədiyi məkanda getmək üçün dərhal avtomobil sifafiş edə bilər. UBER xidmətindən ilk dəfə istifadə edənlər üçün isə, tərəfimizdən xüsusi endirimli promo kod təqdim olunur.

Layihə çərçivəsində məlumatların toplanması və analizi məqsədilə sosial platformalardan məlumatları toplayan bir neçə sayt da hazırlanmış, lakin araşdırmalar yekunlaşdıqdan bir il sonra fəaliyyətləri dondurulmuşdur. Hal-hazırda istifadəçilər tərəfindən yüklənərək aktiv istifadə edilən iKeebon mobil tətbiqini isə istənilən şəxs mobil telefonuna yükləyərək, imkanlarından yararlana bilər.

iKeebon mobil tətbiqini hal-hazırda aşağıdakı keçidlərdən istifadə edərək yükləmək mümkündür:

iPhone telefonları üçün: https://itunes.apple.com/us/app/id1146279604

Android telefonları üçün: https://play.google.com/store/apps/details?id=az.xercim

Aparılmış araşdırmaların nəticəsi olaraq, hal-hazırda tərəfimizdən AMAK (Azərbaycan Milli Avtomobil Klubu)-ın öz üzvləri üçün qurduqları sadiqlik platfomasında təklif və tövsiyyələrimiz əsasında işlər aparılır. Bundan başqa onlayn ödənişlər və pul köçürmələri üçün nəzərdə tutulmuş onlayn cüzdan şirkəti tərəfindən, müştərilərinin sadiqlik sistemlərinin qurulmasında yardım edilməsi üçün müraciət olunmuşdur.